**№ 139** **QƏRAR** **Bakı şəhəri, 30 mart 2016-cı il**

# "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

"Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 sentyabr tarixli 595 nömrəli Fərmanının 6.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547; 2015, № 8, maddə 974; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 4 noyabr tarixli 353 nömrəli qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.3-cü, 2.8-ci, 15.2-ci və 34.2-ci bəndlər əlavə edilsin:

| | |
|---|---|
| 1.3. | Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin Xüsusi Həkim Komissiyasının məlumat sistemi |
| 2.8. | Ədliyyə Nazirliyinin Tibb baş idarəsinin hərbi-həkim komissiyasının məlumat sistemi |
| 15.2. | Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Həkim-Tibb Komissiyasının məlumat sistemi |
| 34.2. | Müdafiə Nazirliyinin hərbi-həkim komissiyasının (hərbi-uçuş komissiyasının) məlumat sistemi |

2. Aşağıdakı məzmunda 39 - 41-ci hissələr əlavə edilsin:

| | |
|---|---|
| | **39. Fövqəladə Hallar Nazirliyi üzrə** |
| 39.1. | Fövqəladə Hallar Nazirliyinin Tibb Xidmətinin Xüsusi Həkim Ekspertiza Komissiyasının məlumat sistemi |
| | **40. Dövlət Sərhəd Xidməti üzrə** |
| 40.1. | Dövlət Sərhəd Xidmətinin Hərbi-Həkim Komissiyasının məlumat sistemi |
| | **41. Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti üzrə** |
| 41.1. | Sığortaolunanlar barədə informasiya ehtiyatı |

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***